

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 31 (23.193)

13 fevral 2019-cu il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 12-də REAL televiziyasının rəhbəri Mirşahin Ağayevə geniş müsahibə verib.

Dövlətimizin başçısı müsahibəsində deyib ki, mən Azərbaycan mediasına həmişə böyük dəstək göstərmişəm. Mənim media nümayəndələri ilə çoxsaylı görüşlərim bunun əyani sübutudur və həmişə çalışmışam ki, öz işimlə medianın inkişafına dəstək verim. Şadam ki, Azərbaycan mediası bu gün ölkəmizin həyatında önəmli rol oynayır. Deyə bilərəm ki, mən də öz işimdə mediadan gələn xəbərlərə istinad edirəm, bəzi hallarda mediadan bir çox məsələləri öyrənirəm, dərhal reaksiya verirəm.

Prezident İlham Əliyev vurğulayıb ki, bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Köçkünlər üçün 100-dən çox şəhərcik tikilib. Bu məsələ ilə məşğul olan beynəlxalq təşkilatlar həmişə Azərbaycanı nümunə kimi göstərirlər. Şəhid ailələrinə, Qarabağ müharibəsi əlillərinə 6500-dən çox mənzil verilib. Şəhid vərəsələrinə 11 min manat məbləğində birdəfəlik maddi yardım verilib. Bu da dünya praktikasında analoqu olmayan bir yanaşmadır.

## Ölkə başçısı tərəfindən pensiyaların sığorta hissəsi artırılmışdır

*Azərbaycan Respublikası Prezidentinin "Əmək pensiyalarının sığorta hissəsinin indeksləşdirilməsi haqqında" 2019-cu il 7 fevral tarixli Sərəncamı pensiyaçıların sosial müdafiəsinin gücləndirilməsi istiqamətində atılan növbəti mühüm addımdır.*

Bu sərəncam pensiya təminatında artım dinamikasının, ümumən, əhalinin rifah halının yaxşılaşdırılmasına yönələn tədbirlərin cari ildə də uğurla davam etdirildiyini göstərir. Sərəncama əsasən əmək pensiyalarının sığorta hissəsi və fərdi hesabların sığorta hissəsində toplanmış pensiya kapitalı 2018-ci il üzrə orta aylıq nominal əməkhaqqının Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi tərəfindən müəyyən edilən illik artım tempinə uyğun olaraq 3 faiz artırılacaqdır.

Ölkə başçısının bu sərəncamının icra edilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu tərəfindən müəyyən işlər görülür. Artımlar muxtar respublika üzrə 48 min 864 əmək pensiyaçısına şamil ediləcək və pensiyalara yönəldilən aylıq vəsaitdə, ümumilikdə, 258,7 min manata yaxın artım olacaqdır. Muxtar respublika üzrə fərdi uçot sistemində qeydiyyatda olan 172 min 309 sığortaolunanın fərdi hesabının sığorta hissəsində toplanmış pensiya kapitalı məbləğlərinin indeksləşdirilməsi də xüsusi proqram vasitəsilə avtomatlaşdırılmış şəkildə həyata keçiriləcəkdir. Nəticədə, yaşa görə 26 min 789, əlilliyə görə 13 min 178, ailə başçısını itirməyə görə 8897 pensiyaçının pensiyası artırılacaqdır.

Məlumat üçün bildirilir ki, fond tərəfindən hərbi qulluqçular və xüsusi rütbəli şəxslər, dövlət qulluqçuları, Mərkəzi Seçki Komissiyasının üzvü, Hesablama Palatasının üzvü, deputat və digər bu kateqoriyalardan olan şəxslər kimi pensiyaya çıxmış əmək pensiyaçılarının pensiyalarında da bu sərəncama uyğun müvafiq şərti çevrilmələr aparılmaqla müvafiq hesablamalar həyata keçiriləcək, lakin onların pensiyalarının ümumi məbləğində dəyişiklik olmayacaqdır.

Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun yerli orqanları tərəfindən indeksləşmə 1 həftə ərzində yekunlaşdırılaraq bütün növ əmək pensiyaları üzrə hesablanmış artımlar, Azərbaycan Respublikası Prezidentinin Sərəncamına uyğun olaraq 2019-cu il fevral ayının pensiya ödənişində, yanvar ayının artımları da daxil olmaqla əmək pensiyaçılarına ödəniləcəkdir.

**Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun mətbuat xidməti**

## 497 daşınmaz əmlak qeydiyyata alınıb

*Muxtar respublikada daşınmaz əmlak üzərində hüquqların dövlət qeydiyyatına alınması zamanı vətəndaşlara göstərilən xidmətlərin səviyyəsinin yüksəldilməsi yanvar ayında da Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsi tərəfindən diqqətdə saxlanılmışdır.*

Muxtar respublikanın iqlim şəraitinə uyğun və yüksək məhsuldarlığa malik yerli meyvə-tərəvəz sortlarının bərpası və tətbiq olunması, əkin atlaslarına uyğun meyvə-tərəvəz əkinlərinin aparılması məqsədilə Şərur rayonunun Kürkəndində maarifləndirici tədbir keçirilmiş, Kürkənd, Kürçülü, Sərxanlı, Qışlaqabbas, Püsyan və Qorçulu bələdiyyələrinin yeni hazırlanmış torpaqların qida maddələri ilə təminolunma kartoqramları tədbir iştirakçılarına təqdim edilmişdir.

Şərur rayonunun Dərəkənd və Qarxun, Babək rayonunun Nehrəm kəndlərində daşınmaz əmlak obyektlərinin plana alınması başa çatdırılmış, ay ərzində 1576 daşınmaz əmlak obyekti plana alınmışdır. Naxçıvan şəhər inzibati ərazi vahidinin tərkibinə daxil olan Əliabad bələdiyyəsinin mövcud mülkiyyət növləri üzrə torpaq sahələrinin elektron kadastr xəritəsi hazırlanmışdır. Babək rayonunun Şıxmahmud, Xəlilli, Aşağı Uzunoba, Yuxarı Uzunoba, Nəzərabad və Didivar kəndlərində torpaqlardan istifadəyə və onların mühafizəsinə dair monitorinqlər aparılmış, torpaqlardan qanunsuz istifadə ilə bağlı 50 fakt aşkar edilmişdir. Aşkar olunan faktlardan 47-si aradan qaldırılmış, 3 vətəndaşa xəbərdarlıq olunmuşdur.

Yanvar ayında 497 daşınmaz əmlak obyekti dövlət qeydiyyatına alınmış, 382 texniki sənəd hazırlanmış, yeni yaranmış 56 daşınmaz əmlak obyektinə ünvan verilmişdir. Naxçıvan şəhərində daşınmaz əmlak obyektlərinin ünvanlarının dəqiqləşdirilməsi davam etdirilmiş, ay ərzində 10 küçədə ünvan lövhələrinin və giriş nömrə nişanlarının quraşdırılması başa çatdırılmışdır. Komitənin səyyar xidmət qrupu tərəfindən muxtar respublika üzrə 9 yaşayış məntəqəsində 109 vətəndaşın müraciətinə baxılmışdır.

**Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti**

## Nəzarət gücləndirilir

***Naxçıvan Muxtar Respublikasında miqrasiya proseslərinə dövlət nəzarətinin gücləndirilməsi, o cümlədən qanunsuz miqrasiyanın qarşısının alınması məqsədilə Dövlət Miqrasiya Xidməti tərəfindən həyata keçirilən tədbirlər bu ilin ötən ayında da davam etdirilmişdir.***

Xidmət tərəfindən muxtar respublika ərazisində qanunsuz yaşayan və qeydiyyatsız olan, habelə qanunsuz əmək fəaliyyəti ilə məşğul olan 17 əcnəbi aşkarlanaraq qanunvericiliyə uyğun olaraq barələrində müvafiq tədbirlər görülmüşdür. Ümumilikdə, ötən dövrdə Dövlət Miqrasiya Xidmətinə daxil olan 546 müraciətin 95-i əcnəbilərə Azərbaycan Respublikasında müvəqqəti yaşamaq üçün icazələrin verilməsi və yenidən rəsmiləşdirilməsi, əmək fəaliyyəti ilə məşğul olmaq üçün iş icazələrinin verilməsi, eləcə də Azərbaycan Respublikasının vətəndaşlığına qəbul, vətəndaşlıqdançıxma və vətəndaşlıq mənsubiyyətinin müəyyənləşdirilməsi ilə bağlı olmuşdur. Müraciətlərin hər biri ayrı-ayrılıqda Azərbaycan Respublikası qanunvericiliyinin tələblərinə əsasən araşdırılmış, müvafiq qərarlar qəbul edilmiş, olduğu yer üzrə qeydiyyata bağlı 451 müraciət qeydə alınaraq icrası təmin olunmuş, həmin müraciətlərdən 203-ü elektron xidmətlər portalı və elektron poçt üzərindən qəbul edilmişdir.

Dövlət Miqrasiya Xidməti tərəfindən fəaliyyət istiqamətlərinə uyğun olaraq maarifləndirmə tədbirləri də həyata keçirilmişdir.

**Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin mətbuat xidməti**

## Yaz suvarma mövsümünə hazırlıq



*Naxçıvan Muxtar Respublikasında 2019-cu ilin yaz suvarma mövsümünü mütəşəkkil təşkil etmək məqsədilə Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsi bir sıra tədbirlər həyata keçirmiş, su anbarlarına suyun yığılmasına başlanmış, kiçikhəcmli sututarları doldurulmuş, kanallarda, nasos stansiyalarında və digər hidrotexniki qurğularda təmir işləri aparılmışdır.*

Ötən ay 9 kilometr magistral kanal, 13 kilometr ara arxları, 2 kilometr kollektor lildən təmizlənmiş, 1 kilometr yeni açıq drenaj kanalı qazılmışdır. Torpaq sahələrini sel sularının zərərli təsirindən qorumaq üçün Cəhriçay və Vənəndçay vadilərində, Qahab selovunda, ümumilikdə, 890 metr istiqamətləndirici bənd tikilmişdir.

Yeni torpaq sahələrinin əkin dövriyyəsinə qatılması hesabına suvarılan torpaq sahələrinin genişləndirilməsi məqsədilə Kəngərli rayonunun Yurdçu kəndində 56 hektar sahədə qapalı suvarma şəbəkəsinin tikintisinə başlanmışdır. Naxçıvan Muxtar Respublikasında əhalinin içməli su təminatını yaxşılaşdırmaq üçün yeni içməli su xətləri çəkilmiş, mövcud xətlərdə təmir-bərpa işləri aparılmışdır. Yanvar ayında Ordubad rayonunun Vələver kəndində "Kənd" kəhrizinin bərpası başa çatdırılmış, 4 kəhrizdə işlər davam etdirilmişdir. Bu dövrdə 1 subartezian quyusu qazılmış, 38 subartezian quyusu təmir-bərpa olunmuşdur. 2019-cu ilin suvarma mövsümünə hazırlıqla əlaqədar olaraq maşın-mexanizmlər, mexaniki və elektrik avadanlıqları da təmir olunaraq işlək vəziyyətə gətirilmişdir.

**Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin mətbuat xidməti**

## Nəqliyyatın intensiv hərəkəti təmin edilir

*Naxçıvan Muxtar Respublikası Dövlət Nəqliyyat Xidməti tərəfindən yanvar ayında muxtar respublika əhalisinə göstərilən avtonəqliyyat xidməti səviyyəsinin yüksəldilməsi istiqamətində tədbirlər keçirilmiş, mövcud çatışmazlıqlar aradan qaldırılmışdır.*



Hesabat dövründə avtovağzalların fəaliyyəti diqqət mərkəzində saxlanılmış, istilik sistemlərinin işlək vəziyyətdə olması, onların fəaliyyətlərinin daha da genişləndirilməsi, balanslarında olan tikililərin, yaşıllıq ərazilərinin yüksək səviyyədə saxlanılması və sərnişinlərə xidmətin səviyyəsinin yüksəldilməsi üçün tədbirlər görülmüşdür.

Beynəlxalq sərnişindaşıma xidməti göstərən avtobusların fəaliyyəti diqqət mərkəzində saxlanılmış, Türkiyə Respublikası ilə Naxçıvan Muxtar Respublikası arasında turların təşkil olunması üçün Türkiyənin "Babək Turizm" və "Ata-Tur Turizm" firmaları ilə danışıqlar aparılmış, sərnişindaşıma fəaliyyəti göstərilməsi üçün müqavilələr bağlanılmışdır. Yanvar ayında Naxçıvan-Bakı-Naxçıvan avtobus marşrutu ilə Naxçıvandan Bakıya 1229, Bakıdan Naxçıvana isə 1003 sərnişin daşınmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığına uyğun olaraq sərnişinlərin vaxt itkisinin azaldılması məqsədilə Naxçıvan-Bakı-Naxçıvan marşrutunun axşam reysləri fəaliyyətə başlamışdır.

Avtonəqliyyat vasitələri ilə təhlükəsiz sərnişin daşınmasına, marşrut qrafikinə, xətdə olarkən avtobusların sürət həddinə nəzarət edilməsi üçün Naxtel-4G monitorinqizləmə sistemindən istifadə olunmuş, taksi və avtobus sürücülərinin ayda iki dəfə qrup şəklində muzeylərə ekskursiyaları təşkil edilmiş, rayon mərkəzləri və kəndlərin hamısı marşrutla təmin olunmuşdur.

**Naxçıvan Muxtar Respublikası Dövlət Nəqliyyat Xidmətinin mətbuat xidməti**

Elmi nəşrlər

# Naxçıvan tarixinin öyrənilməsində daha bir uğurlu addım

*Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyevin "Naxçıvan Azərbaycanın dövlətçilik tarixində" adlı monoqrafiyası Naxçıvan tarixinin tədqiqinə mühüm töhfədir. İsmayıl Hacıyevin müxtəlif illərdə nəşr etdirdiyi "Azərbaycan Xalq Cümhuriyyəti və Naxçıvan", "Behbud ağa Şahtaxtinski: həyatı və fəaliyyətinin mühüm mərhələləri", "Naxçıvan Muxtar Respublikası müstəqillik yollarında", "Ermənilərin Azərbaycana qarşı ərazi iddiaları və qanlı cinayətləri", "Heydər Əliyev siyasəti: tarixdə və günümüzdə", "Naxçıvan Muxtar Respublikası Azərbaycanın milli dövlətçilik tarixində", "Naxçıvan Muxtar Respublikasının ictimai-siyasi həyatı, sosial-iqtisadi və mədəni inkişafı (1991-2011-ci illər)" və digər əsərləri Naxçıvan tarixinin bir çox qaranlıq cəhətlərinə işıq salmış, Azərbaycan tarixşünaslığında özünəməxsus yeri olan naxçıvanşünaslıq irsini daha da zənginləşdirmişdir.*




"Naxçıvan Azərbaycanın dövlətçilik tarixində" monoqrafiyası İsmayıl Hacıyevin elmi yaradıcılığında yeni bir mərhələnin başlanğıcı kimi də qiymətləndirilməlidir. Əgər indiyə qədər onun tədqiqat çərçivəsi daha çox XIX-XXI əsrlərlə məhdudlaşırdısa, o, bu əsərində ilk dəfə göstərilən çərçivəni aşmış, Naxçıvan diyarının dövlətçilik tarixini ən qədim zamanlardan müasir dövrümüzə qədər tədqiq etmişdir. Elə buradaca monoqrafiyanın daha bir məziyyəti üzərində dayanmaq lazımdır. İsmayıl müəllim yalnız Azərbaycanın dövlətçilik tarixində Naxçıvanın yerini təsvir etmək və müəyyənləşdirməklə kifayətlənməmiş, bütün Azərbaycan tarixi üçün mühüm aktuallıq kəsb edən bir çox məsələlərin qoyuluşuna və həllinə öz münasibətini bildirmişdir. Onun Azərbaycanda dövlətin yaranması şəraiti və ilkin xronologiyasının şərhi zamanı, hətta akademik nəşrlərdə yol verilmiş uyğunsuzluqları qabartması diqqəti xüsusilə cəlb edir.

Akademik İsmayıl Hacıyevin çoxillik zəhmətinin bəhrəsi olan monoqrafiya giriş, 8 fəsil, 27 yarımfəsil, nəticə, biblioqrafiya, adlar göstəricisi və əlavələrdən ibarətdir. Müəllif monoqrafiyanın strukturunu müəyyənləşdirərkən tarixşünaslıqda qəbul edilmiş dövrləşmə prinsipini əsas götürmüş, Naxçıvan tarixinin ayrı-ayrı dövrlərini bu prinsipə söykənərək tədqiq etmişdir.

"Naxçıvanın Azərbaycanda dövlətyaranma prosesində rolu" adlanan birinci fəsil 4 yarımfəsildən ibarətdir. Burada Azərbaycan tarixində dövlət və dövlətçilik probleminin qoyuluşuna dair mövcud baxışlar tədqiqatçı süzgəcindən keçirilmiş, Naxçıvanın ərazisi və təbii-iqlim xüsusiyyətləri haqqında zəruri olan bilgilər yığcam şəkildə şərh olunmuş, ən qədim zamanlardan eramızdan əvvəl III minilliyədək olan dövrdə diyarın inkişaf yolu işıqlandırılmış, Azərbaycanda dövlətin yaranmasına dair yeni müddəalar irəli sürülmüş, bu prosesdə Naxçıvanın rolu məsələsinə aydınlıq gətirilmişdir.

Birinci fəsillə tanışlıq göstərir ki, müəllif öz qarşısına heç də hamıya yaxşı məlum olan hadisə və proseslərin şərhini vermək vəzifəsi qoymamışdır. Burada diqqəti çəkən əsas məqam bu hadisə və proseslərə peşəkar və püxtələşmiş bir tədqiqatçının yanaşma tərzidir. Müəllifi hadisə və prosesin baş verdiyi zaman və məkandan daha çox onların törətdiyi nəticələr maraqlandırır. Belə yanaşma Naxçıvanın ərazisi, təbii-iqlim xüsusiyyətləri kimi məsələlərin işıqlandırılmasında özünü daha aydın göstərir. Əslində, Naxçıvanın coğrafi mövqeyinin özündə bir unikallıq var. Bu diyar Şimali Azərbaycanın cənubunda, Cənubi Azərbaycanın isə şimalında mövqe tutmaqla bütün ölkədə gedən ictimai-siyasi proseslərin mərkəzində olmaq şansı qazanmışdır. Elə bunun nəticəsidir ki, Naxçıvan əsrlərboyu Azərbaycanın şimalı ilə cənubu arasında bir növ körpü rolunu oynamış, ölkənin dövlətçilik ənənələrinin formalaşmasına öz töhfəsini vermişdir.

"Azərbaycanın qədim dövlətləri və Naxçıvan" adlanan ikinci fəsil böyük bir xronoloji dövrü – eramızdan əvvəl IX əsrdən bizim eranın III əsrinə qədərki dövrü əhatə edir. Bütövlükdə, dörd yarımfəsildən ibarət olan bu fəsildə Naxçıvan diyarının Manna dövləti, Midiya və Əhəməni imperiyaları, Atropatena və Parfiya Arşakiləri dövründə ictimai-siyasi vəziyyəti öyrənilmiş, adları çəkilən dövlətlərlə münasibətləri tədqiq edilmiş, bir çox məsələlər haqqında dəqiqləşdirmələr aparılmış, tarixşünaslıqda bu sahələrlə bağlı mövcud boşluqlar müəyyənləşdirilmişdir. Sonuncu fikirlər Naxçıvan diyarının Manna dövləti ilə münasibətlərinin aydınlaşdırılması məsələsində daha böyük aktuallıq kəsb edir. Problemə və dövrə dair tədqiqat əsərlərini dərindən araşdıran müəllif təəssüf hissi ilə bu əsərlərdə diyarın Manna dövlətinin tərkibində olduğu vaxt haqqında konkret fikir söylənilmədiyini qeyd edir və elə oradaca bu hadisənin eramızdan əvvəl VIII əsrin sonu, eramızdan əvvəl VII əsrin əvvəllərində baş verməsi ehtimalını irəli sürür. O, eyni zamanda eramızdan əvvəl IX-VI əsrlərdə Naxçıvan diyarının qonşu dövlətlər və vilayətlərlə əlaqələrinin tədqiqi vəziyyətinin heç də qənaətbəxş olmadığını qeyd edir.

Monoqrafiyanın həcm etibarı ilə ən böyük bölməsi "Azərbaycanın orta əsr dövlətləri və Naxçıvan" adlanan üçüncü fəsildir. Ümumilikdə, 8 yarımfəsildən ibarət olan bu fəsildə bütün orta əsrlər dövründə (III-XVIII əsrlərdə) Azərbaycan dövlətçiliyi sistemində Naxçıvanın yeri və rolu araşdırılmışdır. Müəllif burada da öz qarşısına qoyduğu vəzifəyə uyğun olaraq əsas diqqəti orta əsrlər dövründə Azərbaycanın dövlətçilik sistemində Naxçıvanın mövqeyinin müəyyənləşdirilməsinə yönəltmişdir. Erkən orta əsrlər dövründə Azərbaycanın digər torpaqları kimi, Naxçıvan diyarı da əvvəlcə (III-VII əsrlər) Sasani imperiyasının, sonra isə (VII-IX əsrlər) Ərəb xilafətinin tərkibində olmuşdur. Buna baxmayaraq, diyar hər iki imperiyanın hakimiyyəti dövründə özünün inzibati və siyasi mərkəz rolunu qoruyub saxlamış, bununla da yaxın gələcəkdə Azərbaycanın qədim dövlətçilik ənənələrinin dirçəlməsinə öz töhfəsini vermişdir. Naxçıvan bu dövrdə Azərbaycanda həm də yadelli əsarətə qarşı müqavimət hərəkatının mühüm mərkəzlərindən biri olmuşdur. Əsərdə hazırkı dövrdə də Naxçıvan diyarının müxtəlif yerlərində Xürrəmilər hərəkatının rəhbəri Babəkin adı ilə bağlı tarixi abidələrin və yaşayış yerlərinin göstərilməsi bu fikri təsdiq edən mühüm dəlillər kimi təqdim edilir.

Müəllif monoqrafiyanın bu bölməsində Ərəb xilafətinin süqutundan sonra Azərbaycanda yaranmış müstəqil dövlətlərin (Sacilər, Salarilər, Şirvanşahlar, Şəddadilər və Rəvvadilər) ictimai-siyasi həyatında Naxçıvanın yeri məsələsini diqqətlə araşdırmışdır. Onun X əsrin 80-ci illərindən XI əsrin 60-cı illərinə qədər mövcud olmuş Naxçıvanşahlıqla əlaqədar irəli sürdüyü fikirlər xeyli maraq doğurur. Tarixi ədəbiyyatda bu qurumun mövcudluğu və statusu haqqında müxtəlif fikirlər vardır. Bu fikirlərin hər birinin elmi təhlilini verən müəllif Naxçıvanşahlığın əhatə etdiyi ərazini müəyyənləşdirmiş, onun tarixinin Rəvvadilər və Şəddadilər dövlətləri ilə sıx bağlı olması qənaətinə gəlmişdir. Diləfilər sülaləsinin idarə etdiyi Naxçıvanşahlıq əksər vaxtlarda Şəddadilər dövlətinin tərkibində bir əmirlik kimi nisbi müstəqilliyə malik olmuş, bir sıra vaxtlarda müstəqilliyini qoruyub saxlamış, qonşu dövlətlərlə dostluq münasibətləri yaratmışdır.

Monoqrafiyada Azərbaycan Atabəylər dövlətinin tarixinə ayrıca bir yarımfəslin həsr edilməsi heç də təsadüfi deyildir. Müəyyən vaxtlarda Şərqin ən qüdrətli imperiyalarından birinə çevrilən bu dövlətin tarixində Naxçıvan diyarının özünəməxsus yeri vardır. Dövlətin banisi Şəmsəddin Eldəniz 1146-cı ildə Naxçıvan vilayətini ələ keçirdikdən sonra öz dövlətinin paytaxtını buraya köçürmüşdü. 1174-cü ilə qədər Azərbaycan Atabəylər dövlətinin paytaxtı olmuş Naxçıvan şəhəri məhz həmin tarixdə özünün çiçəklənmə dövrünə qədəm qoymuş, dövlətin əsaslarının möhkəmləndirilməsində mühüm rol oynamışdır. Monoqrafiyanın bu fəslinin sonrakı yarımfəsillərində XIII-XVIII əsrlərdə Azərbaycanda gedən siyasi proseslərdə Naxçıvanın oynadığı rol qabarıq şəkildə diqqətə çatdırılmışdır.

Tədqiqatçı əsərdə Azərbaycanın dövlətçilik tarixində özünəməxsus mövqeyi olan Naxçıvan xanlığına xüsusi yer ayırmışdır. Əslində, Azərbaycanın digər xanlıqları kimi, Naxçıvan xanlığı da milli dövlətçilik ənənələrinin yaranıb inkişaf etməsində mühüm rol oynamışdır. XIX əsrin əvvəllərində baş vermiş rus istilası bu ənənələrin inkişafına ağır zərbə vursa da, onu tamamilə sıradan çıxara bilmədi. Artıq xanlıqlar dövründən formalaşmağa başlayan milli dövlətçilik ideyaları 1918-ci ildə yaranmış Azərbaycan Xalq Cümhuriyyəti dövründə real həqiqətə çevrildi. Müəllif haqlı olaraq göstərir ki, bu dövrdə də Azərbaycanın dövlətçilik sistemində mühüm rol oynayan Naxçıvan ölkənin ərazi bütövlüyünün qorunub saxlanılmasına öz töhfəsini vermişdir.

Naxçıvan diyarının tarixinin 70 illik bir dövrü sovet hakimiyyəti ilə bağlı olmuşdur. Müəllif bu dövrdə diyarda baş vermiş ictimai-siyasi prosesləri iki yarımfəsildə öyrənmişdir. "Naxçıvanın muxtariyyətləşdirilməsi" adlanan birinci yarımfəsil çox zəngin mənbələr və tədqiqat əsərləri əsasında yazılmışdır. Bu materialları təhlil edən müəllif haqlı olaraq belə nəticəyə gəlir ki, məhz Naxçıvan əhalisinin qətiyyəti və qardaş Türkiyənin obyektiv mövqe tutması nəticəsində diyarın ermənilər tərəfindən ələ keçirilməsinin qarşısı alınmış, ona Azərbaycan SSR-in tərkibində muxtariyyət statusu verilmişdir. Fəslin ikinci yarımfəslində sovet hakimiyyəti illərində Naxçıvan MSSR-in yaranması və onun keçdiyi siyasi və sosial-iqtisadi inkişaf yolu işıqlandırılmışdır.

Monoqrafiyanın zəngin faktiki materiallar əsasında yazılan, eyni zamanda elmi-nəzəri materiallarla zəngin olan yeddinci və səkkizinci fəsilləri özlərinin daha böyük elmi əhəmiyyət daşımaları ilə seçilir. Cəmi 3 yarımfəsildən ibarət olan yeddinci fəsildə ulu öndər Heydər Əliyevin Naxçıvana rəhbərlik etdiyi 1991-1993-cü illər daha diqqətlə araşdırılmış, hazırkı dövrdə Naxçıvanın çiçəklənmə dövrü yaşamasında həmin illərin misilsiz rol oynadığı xüsusi vurğulanmışdır. Burada, həmçinin Azərbaycan Respublikasının 1995-ci il Konstitusiyası əsasında Naxçıvanın yeni statusunun təsbit edilməsi də işıqlandırılmışdır. Monoqrafiyanın "Naxçıvan Muxtar Respublikasının müasir Azərbaycan dövlətçiliyində rolu (1995-ci ilin sonlarından bizim günlərədək)" adlanan səkkizinci fəslində Naxçıvan Muxtar Respublikasının yeni Konstitusiyasının qəbul edilməsi, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun rəhbərliyi dövründə diyarda quruculuq və abadlıq işlərinin miqyasının daha da genişlənməsi, ulu öndər Heydər Əliyevin və onun layiqli davamçısı İlham Əliyevin diyara göstərdikləri diqqət və qayğı konkret faktlar əsasında tədqiq olunmuşdur. Monoqrafiyanın sonunda şəxs və coğrafi ad göstəricilərinin, eləcə də mühüm əhəmiyyət daşıyan sənədlərin Əlavədə verilməsi onun elmi əhəmiyyətini daha da artırır.

Düşünürük ki, akademik İsmayıl Hacıyevin uzun illər davam etmiş gərgin əməyinin bəhrəsi olan bu monoqrafiya ölkəmizin dövlətçilik tarixini, Naxçıvan diyarının tarixinin müxtəlif dövrlərini araşdıran tədqiqatçılar, həm də bu diyarın tarixini öyrənmək istəyən bütün oxucular üçün faydalı olacaqdır.

*Kitab müəllifinin 2019-cu il üçün elm sahəsi üzrə Naxçıvan Muxtar Respublika mükafatına layiq görülməsini muxtar respublika ziyalıları və elm adamları tariximizə verilən yüksək qiymət kimi dəyərləndirirlər.*

**Şahin FAZİL**
***tarix üzrə elmlər doktoru, professor,***
**Camal MUSTAFAYEV**
***tarix üzrə elmlər doktoru, professor***

## Səfirliklərimiz sosial şəbəkələrdə
## Naxçıvan Muxtar Respublikasının 95 illiyi ilə bağlı paylaşmalar ediblər



Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 21 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş Tədbirlər Planına əsasən Naxçıvan Muxtar Respublikasının 95 illiyi geniş şəkildə qeyd olunur. Bununla bağlı Azərbaycanın xarici dövlətlərdəki diplomatik nümayəndəlikləri də maraqlı paylaşmalar ediblər.

Azərbaycanın dost və qardaş ölkə olan Pakistan İslam Respublikasındakı səfirliyinin "Facebook" səhifəsində bu münasibətlə yerləşdirilmiş məlumata əlavə olunmuş 40-a yaxın fotoşəkil Naxçıvanın görməli yerləri, tarixi abidələri, müasir inkişaf səviyyəsi haqda izləyicilərdə ətraflı təsəvvür yaradır. İngilis və Azərbaycan dillərində verilən paylaşımda Naxçıvan 5000 illik qədim tarixi ilə Şərq sivilizasiyasının beşiyi, dünyanın ticarət, sənətkarlıq, elmi və mədəni mərkəzlərindən biri, eyni zamanda 2018-ci il üzrə İslam Mədəniyyətinin Paytaxtı, 1200-ə qədər tarixi-mədəni abidənin məskəni olan bir diyar kimi qeyd olunur. Səfirlik paylaşmada bütün izləyiciləri Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin doğma vətəni olan, Əcəmi Naxçıvani, Hüseyn Cavid və digər görkəmli şəxsiyyətlərin yaşayıb yaratdığı Naxçıvana səyahətə dəvət edir. Bu torpağın gözəlliklərini öz gözləri ilə görmək tövsiyə olunur.

Qeyd edək ki, eyniməzmunlu statuslar ölkəmizin Ukraynada və Bolqarıstan Respublikasındakı səfirliklərinin də "Facebook" səhifələrində yerləşdirilib. Ukraynadakı səfirliyimiz sosial şəbəkə səhifəsində Naxçıvan Dövlət Televiziyasında hazırlanan "Naxçıvan Muxtar Respublikası – 95" adlı videoçarxı, Azərbaycanın Bolqarıstan Respublikasındakı səfirliyi isə ingilis dilində "Naxçıvan Muxtar Respublikası 95 illik yubileyini qeyd edir" başlıqlı yazı verib.

**Əli CABBAROV**

## Test imtahanlarına start verilib

2018-ci il dekabrın 10-da Naxçıvan Muxtar Respublikası Ali Məclisində "Naxçıvan Muxtar Respublikasında bədən tərbiyəsi və idmanın hazırkı vəziyyəti və qarşıda duran vəzifələr haqqında" keçirilən müşavirədə verilən tapşırıq və tövsiyələrə əsasən muxtar respublikada digər idman növləri kimi, şahmatın da inkişafı, uşaq və yeniyetmələr arasında kütləvi hal alması üçün mühüm tədbirlər həyata keçirilir.

Naxçıvan Muxtar Respublikasında şahmatın tədrisinin keyfiyyətinin yaxşılaşdırılması və müəllimlərin peşəkarlıq səviyyəsinin yoxlanılması məqsədilə 11 fevral tarixdən sertifikasiya imtahanlarına start verilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın Test mərkəzində keçirilən sertifikasiya imtahanlarında Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin tabeliyində fəaliyyət göstərən təhsil müəssisələrində şahmat fənnini tədris edən 431 müəllim iştirak edəcəkdir.

Test imtahanında iştirakçılara 40 sual təqdim edilir, sualları cavablandırmaq üçün 60 dəqiqə vaxt verilir. Test tapşırıqlarının ən azı 50 faizini (20 bal) düzgün cavablandırmış şəxslər müvafiq keçid balını toplamış hesab olunurlar. Şahmat fənni üzrə aparılan test imtahanları elektron proqram təminatı vasitəsilə keçirilir. Bununla da sualları cavablandırarkən iştirakçılar seçdikləri cavabları imtahan vaxtı ərzində dəyişə və monitorda imtahanın vaxtını izləyə bilirlər. Obyektivliyin və şəffaflığın tam təmin edilməsi məqsədilə imtahanların videoçəkilişi də aparılır. Test imtahanı bitdikdən dərhal sonra iştirakçılara nəticəyə dair arayış təqdim edilir. Nəticələr komissiyanın rəsmi internet portalında *(www.dqmk.nmr.az)* yerləşdirilir.

Test imtahanları 14 fevral 2019-cu il tarixədək davam edəcəkdir.

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın mətbuat xidməti***

# Dövlət proqramı uğurla icra olunur



***Muxtar respublikada ərzaq təhlükəsizliyinin təmin olunması istiqamətində ardıcıl tədbirlər görülür. Qəbul olunan dövlət proqramlarının icrası, güzəştli şərtlərlə kreditlərin verilməsi, aqrar sahədə müasir infrastrukturun yaradılması kənd təsərrüfatının müxtəlif sahələrinin, xüsusilə də əkinçiliyin inkişafına əlverişli şərait yaratmış, bol məhsul istehsalına və daxili bazarın tələbatının ödənilməsinə səbəb olmuşdur.***

“2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı”nda nəzərdə tutulan vəzifələrin yerinə yetirilməsi də muxtar respublikada əhalinin keyfiyyətli meyvə və tərəvəz məhsulları ilə təminatına imkan verir. Dövlət proqramında qarşıya qoyulan vəzifələrin icrası 2018-ci ildə də davam etdirilmişdir. Belə ki, Kənd Təsərrüfatı Nazirliyinin “Araz” Elm-İstehsalat Birliyinin Ordubad dayaq məntəqəsində 372 meyvə genofondu, Nehrəm meyvəçilik və üzümçülük istiqamətli sort-sınaq məntəqəsində 17 üzüm sortu fondu toplanmışdır. Həmin sortların çoxaldılaraq torpaq mülkiyyətçilərinə paylanması və yeni bağların salınması ilə əlaqədar işlər aparılmışdır. Bu dövrdə tərəvəz əkini sahələrinin genişləndirilməsinə də diqqət artırılmış, muxtar respublikada 2018-ci ildə 3215 hektar ərazidə kartof, 6183 hektar ərazidə tərəvəz əkini həyata keçirilmişdir.

AMEA Naxçıvan Bölməsinin Bioresurslar İnstitutunun Meyvə, tərəvəz və üzümçülük laboratoriyasında Naxçıvan Muxtar Respublikasının iqlim şəraitinə uyğun, yüksək məhsuldarlığa malik olan, aborigen meyvə sortlarına dair tədqiqat işləri aparılmışdır. Muxtar respublika ərazisində becərilən heyva, gilas, albalı, ərik, gavalı, şaftalı, alça sort və formaları plana uyğun olaraq tədqiq edilmiş, yeni süfrə və texniki üzüm sort və formalarının biomorfoloji xüsusiyyətləri araşdırılmışdır.





Meyvəçiliyin və tərəvəzçiliyin inkişafında vacib məsələlərdən biri də müasir meliorasiya və irriqasiya sistemlərinin qurulmasıdır. Ötən il bu sahədə bir sıra tədbirlər görülmüş, Kəngərli rayonunun Böyükdüz kəndi ərazisində 616 hektar sahəni əhatə edən qapalı suvarma şəbəkəsinin tikintisi başa çatdırılmışdır. Yaşıllıqların suvarılması üçün Şərur, Babək, Culfa, Şahbuz, Ordubad, Sədərək və Kəngərli rayonları ərazilərində müxtəlif diametrli borularla, ümumilikdə, 47 kilometr suvarma xətti çəkilmiş, mövcud suvarma xətləri təmir edilmişdir.

Meyvəçiliyin və tərəvəzçiliyin davamlı inkişaf etdirilməsinə münbit şərait yaradan amillərdən biri də əldə olunan məhsulun soyuducu anbarlarda saxlanılmasıdır. 2018-ci ildə özəl investisiya qoyuluşu hesabına Babək rayonunun Nehrəm kəndində “Sumqala Tikinti Təchizat” Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən ümumi tutumu 2500 ton olan yeni soyuducu anbarın tikintisi davam etdirilmişdir. Şərur rayonunun Sərxanlı kəndində fiziki şəxs Vəli Zamanov tərəfindən və Cəlilkənddə fiziki şəxs Yaqub Tağıyev tərəfindən soyuducu anbarın genişləndirilməsi, Yuxarı Aralıq kəndində fiziki şəxs Asiman Ələkbərov tərəfindən 125 ton tutumu olan soyuducu anbarın yaradılması davam etdirilmişdir. 2018-ci ildə meyvə-tərəvəz məhsullarının tədarükü məqsədilə Şərur və Ordubad rayonlarında fəaliyyət göstərən 2 sahibkara 90 min manatlıq dövlət maliyyə dəstəyi göstərilmişdir.

Əhalini ilboyu meyvə-tərəvəz məhsulları ilə təmin etmək muxtar respublikada aqrar sahədə həyata keçirilən əsas tədbirlərdəndir. Müasir istixana komplekslərinin yaradılması ilin istənilən fəslində bazarın tələbatının ödənilməsinə imkan verir. Həyata keçirilən tədbirlər nəticəsində 2018-ci ildə Şərur rayonunun Maxta kəndində fiziki şəxs Zahid Musayev tərəfindən özəl investisiya hesabına sahəsi 1000 kavdratmetr olan müasir istixana təsərrüfatının yaradılması, dövlət maliyyə dəstəyi hesabına Arpaçay kəndində fiziki şəxs Abdulla Adıgözəlov tərəfindən istixana təsərrüfatının 4000 kvadratmetr genişləndirilməsi başa çatdırılmış, Ələkli kəndində Etibar Seyidov tərəfindən 460 kvadratmetr yeni istixana təsərrüfatının qurulması davam etdirilmişdir.

İstehsalçıların fəaliyyətinin stimullaşdırılması, əhalinin mövsümi kənd təsərrüfatı məhsullarına olan tələbatının ödənilməsi və qiymətlərin tənzimlənməsi məqsədilə soyuducu anbarlara 5419 ton meyvə-tərəvəz məhsulları tədarük edilmiş, istixana təsərrüfatlarında 471 ton tərəvəz məhsulları yetişdirilərək bazarlara çıxarılmışdır. Bu məhsulların keyfiyyəti daim nəzarətdə saxlanılmış, 144 halda orta nümunələr götürülərək təhlil edilmişdir. Həmçinin bu sahələrdə yetişdirilən bostan-tərəvəz məhsullarının bazarlara təklif edildiyi nəzərə alınaraq 996 halda səyyar laboratoriya analizləri aparılmış, istehsalçılarla maarifləndirmə tədbirləri davam etdirilmişdir.

Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi tərəfindən 2018-ci ildə istehsal olunan məhsullardan 112 halda keyfiyyət göstəriciləri yoxlanıldıqdan sonra sertifikatlaşdırılmış, 12 anbardan, 5 istixanadan, 35 bostandan və 11 satış obyektlərindən götürülmüş məhsulların 228 halda laboratoriya analizləri aparılaraq keyfiyyət göstəricilərinin standartların tələblərinə uyğunluğu müəyyən edilmişdir.

İxtisaslaşmış meyvə və tərəvəzçilik təsərrüfatlarının, müasir emal, qablaşdırma müəssisələrinin yaradılması və ixracyönümlü məhsul istehsal edən sahibkarlara maliyyə dəstəyinin göstərilməsi istiqamətində tədbirlər 2018-ci ildə də davam etdirilmişdir. Kəngərli rayonunun Yeni Kərki kəndində fiziki şəxs Hafizə İsmayılbəyliyə meyvə-tərəvəz məhsullarının konservləşdirilməsi məqsədilə Sahibkarlığın İnkişafı Fondundan 6 min manat dövlət maliyyə dəstəyi göstərilmişdir. Ötən il əhali tələbatının ucuz və keyfiyyətli məhsullarla ödənilməsi məqsədilə Naxçıvan şəhərində və rayon mərkəzlərində həftənin şənbə və bazar günləri kənd təsərrüfatı, emal sənayesi məhsullarının satışı yarmarkası təşkil olunmuş, yarmarkaya kənd təsərrüfatı məhsulları ilə yanaşı, 248 ailə təsərrüfatının 180 adda, 32 yerli istehsal müəssisəsi, 8 soyuducu anbar və istixana təsərrüfatı tərəfindən 230 çeşiddə məhsul çıxarılmışdır.

Muxtar respublikada ənənəvi kənd təsərrüfatı sahələrindən biri də üzümçülükdür. Son illərdə bu sahənin inkişaf etdirilməsi də diqqət mərkəzində saxlanılıb. Belə ki, Sahibkarlığın İnkişafı Fondunun vəsaiti hesabına muxtar respublika üzrə üzümçülüyün inkişaf etdirilməsi məqsədilə 8 layihənin maliyyələşdirilməsinə 179 min manat, 66 layihə üzrə meyvəçilik təsərrüfatlarının yaradılmasına 1 milyon 343 min 100 manat həcmində dövlət maliyyə dəstəyi göstərilmişdir. Babək rayonunun Nehrəm kəndində mövcud üzüm bağı genişləndirilərək 150 hektara çatdırılmışdır.

Qeyd olunan dövrdə əkinçilik üçün yararlı olmayan torpaq sahələrində meliorativ tədbirlərin görülməsi və yeni meyvə bağlarının salınması da diqqətdə saxlanılmışdır. 2018-ci ildə püstə bağında 12 hektar sahədə 1250 dibçəkdə yetişdirilmiş püstə fidanı, 10 hektar sahədə isə püstə tingi vasitəsilə bərpa işləri aparılmışdır. Həmçinin muxtar respublikanın Arazboyu düzənlik ərazilərində 40 hektar sahədə meyvə bağı, 6,5 hektar sahədə üzüm bağı salınmışdır. Ərazilərdə bərpa işləri aparılmış və ümumilikdə, 30 min 200 müxtəlif meyvə tinglərindən və 10 min 480 üzüm tingindən istifadə olunmuşdur. Kənd təsərrüfatı istifadəsindən kənarda qalmış torpaq sahələrində meyvə bağlarının salınmasına ictimai marağın artırılması istiqamətində, ümumilikdə, 2018-ci il ərzində muxtar respublika ərazisində 203,3 hektar sahədə meyvə bağları salınmış, 225 min 329 üzüm və meyvə tingi əkilmişdir.

Genetik fondun qorunub saxlanılması məqsədilə yerli meyvə-tərəvəz sortlarının toxum materiallarının toplanılması, həmin sortların təcrübə sahələrində əkilərək biologiyasının və torpaq-iqlim amillərinə dayanıqlığının öyrənilməsi məqsədilə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin tingçilik müəssisəsi tərəfindən 5,6 hektardan çox ərazidə müxtəlif meyvə toxumlarından ibarət toxmacarlıq, yerli üzüm sortlarından ibarət qələm kökləndirmə sahələri yaradılmış, 38 min üzüm, 45 min iydə qələmi əkilmişdir. Yerli meyvə sortlarının vegetasiya müddətinə uyğun olaraq 2018-ci ildə 8400 kiloqram meyvə toxumları və 1000 kiloqramdan çox yabanı meyvə toxumları tədarük edilmişdir.

Aidiyyəti icra hakimiyyəti orqanları tərəfindən isə sığorta işinin əhəmiyyəti mövzusunda torpaq mülkiyyətçilərinin iştirakı ilə rayon, qəsəbə və kəndlərdə müvafiq seminarlar keçirilmiş, 2018-ci ildə 1455 vətəndaşa məxsus əkin sahəsi sığortalanmışdır.

Geni dəyişdirilmiş və ya genetik modifikasiya edilmiş məhsulların muxtar respublikaya idxalına yol verilməməsi barədə xarici iqtisadi fəaliyyətlə məşğul olan biznes subyektləri ilə görüşlər keçirilmişdir. Bununla yanaşı, üzərində geni dəyişdirilmiş məhsul olması haqqında məlumatlar olan mallara nəzarət gücləndirilmişdir. Naxçıvan Gömrük Ekspertizası İdarəsində genetik modifikasiya olunmuş məhsulların analizinin aparılması üçün müvafiq avadanlıqlar alınmış, qida məhsullarında gen dəyişikliyinin öyrənilməsinə başlanılmışdır. Naxçıvan Gömrük Ekspertizası İdarəsi tərəfindən daha çox geni modifikasiya olunması ehtimalı olan məhsulların siyahısı hazırlanaraq gömrük sərhəd-buraxılış məntəqələrinə göndərilmişdir.

Dövlət proqramına uyğun olaraq muxtar respublikada şoranlaşmış və qrunt sularının üzə çıxması nəticəsində əkin dövriyyəsindən çıxmış torpaq sahələrinin əkin dövriyyəsinə qaytarılması və bu prosesin qarşısının alınması üçün torpaq mülkiyyətçiləri arasında maarifləndirmə işləri aparılmış, Şərur, Culfa, Babək, Sədərək rayonlarında bataqlaşan və şoranlaşan torpaq sahələrində kollektor-drenaj şəbəkəsinin bərpasına başlanmış, 101 kilometr kollektor, 21 kilometr açıq drenaj lildən təmizlənmiş, 26 kilometr yeni açıq drenaj, 3 kilometr qapalı drenaj tikilmişdir.

Kənd təsərrüfatında ziyanverici və xəstəliklərə qarşı mübarizə tədbirlərinin və pestisidlərin satış şəbəkələrinin genişləndirilməsi diqqətdə saxlanılmış, 2018-ci il ərzində muxtar respublika üzrə 675 hektar yonca sahəsində zərərvericilərə, 1603 hektar taxıl və cavan meyvə bağlarında gəmiricilərə, 174 hektar kartof sahəsində Kolorado kartof böcəyinə, 9215 hektar taxıl sahəsində alaq otlarına, 21 hektar sahədə bəzək bitkilərinin zərərverici və xəstəliklərinə qarşı kimyəvi mübarizə tədbirlərinin aparılmasında torpaq mülkiyyətçilərinə metodik köməkliklər göstərilmişdir. Bu məqsədlə xarici ölkələrdən müxtəlif spektrli bitkimühafizə dərmanları alınıb gətirilərək “Naxçıvan Aqrolizinq” Açıq Səhmdar Cəmiyyətinin mərkəzi və rayon bazarlarında yaradılmış apteklərində satışı həyata keçirilmişdir.

Muxtar respublikanın torpaq və iqlim xüsusiyyətləri nəzərə alınmaqla torpaqlardan səmərəli istifadə edilməsi, əkinəyararlı torpaq sahələrinin məhsuldarlığının yüksəldilməsində intensiv amillərin rolunun artırılması, əkin dövriyyəsinə daxil olan torpaqların tərkibinin öyrənilməsi, torpaqların və əkinlərin rayonlaşdırılması diqqət mərkəzində saxlanılmışdır. Kəngərli rayonunda taxılçılıq, bostançılıq, tərəvəzçilik və meyvəçilik üzrə əkin atlası hazırlanmışdır. Bundan başqa, kənd təsərrüfatı məhsullarının tədarükü, satışı və emalı üzrə cəmiyyət və birliklərin yaradılması istiqamətində də işlər görülmüş, “Naxçıvan Meyvə Tərəvəz Məhsulları” və “Naxçıvan Məhsulları” Məhdud Məsuliyyətli cəmiyyətləri təsis edilmiş, “Naxçıvan Muxtar Respublikası İstixanaçıları” İctimai Birliyi yaradılmışdır.

*Dövlət proqramında qarşıya qoyulmuş vəzifələrin icrası bundan sonra da diqqət mərkəzində saxlanılacaqdır.*

***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidməti***

***Naxçıvan Qarnizonu qoşunlarında şəxsi heyətlə iş üzrə komandir müavinləri ilə təlim-metodiki toplantı keçirilib.***

## Təlim-metodiki toplantı keçirilib



Toplantı hərbi qulluqçuların mənəvi-psixoloji hazırlığının yüksəldilməsi işində şəxsi heyətlə iş üzrə zabitlərin bilik və bacarıqlarının təkmilləşdirilməsi, ixtisas hazırlığı səviyyəsinin yoxlanılması məqsədilə təşkil edilib. Toplantıda nəzəri məşğələlərə üstünlük verilərək şəxsi heyətlə iş üzrə komandir müavinlərinin peşəkarlıqlarının artırılmasına, tabelikdə olanların fərdi-psixoloji xüsusiyyətlərinin öyrənilməsi işinə xüsusi diqqət yetirilib.

Muxtar respublikanın Hərbi Prokurorluğunun, Dövlət Təhlükəsizliyi Xidmətinin, Dini Qurumlarla İş üzrə Dövlət Agentliyinin, Naxçıvan Müəllimlər İnstitutunun və Naxçıvan Qarnizonu Təhqiqat Xidmətinin toplantıda iştirak edən nümayəndələri müxtəlif mövzularda çıxış ediblər. Əlahiddə Ümumqoşun Ordunun Təlim-Tədris Mərkəzində keçirilən toplantı zamanı bölmələrdə ictimai-siyasi hazırlıq dərslərinin keçilməsi üzrə göstərici dərslər və hərbi-vətənpərvərlik mövzusunda filmlər nümayiş etdirilib. Şəxsi heyətlə iş üzrə zabitlərdən ixtisas hazırlığından məqbullar götürülüb.

Naxçıvan Qarnizonu qoşunlarında şəxsi heyətlə iş üzrə komandir müavinləri ilə üç gün davam edən təlim-metodiki toplantının yekununda zabitlərin ixtisas hazırlığı və tabelikdə olanları idarəetmə bacarıqları yüksək qiymətləndirilib.

**Nəriman NƏCƏFOV**

## Azərbaycanlı alim Rusiyanın “Akademik” Elmi-Nəşriyyat Mərkəzinə rəyçi seçilib

AMEA Naxçıvan Bölməsinin Təbii Ehtiyatlar İnstitutunun Hidrogeologiya və mineral sular laboratoriyasının müdiri, kimya üzrə fəlsəfə doktoru, dosent Fizzə Məmmədova Rusiyanın “Akademik” Elmi-Nəşriyyat Mərkəzi və “İvanov Manacment Group” Elm-Təhsil Holdinqinə rəyçi seçilib.

Elmi nəşrlərin keyfiyyətinin yüksəldilməsi istiqamətində məhsuldar iş aparan hər iki müəssisənin Rəyasət Heyəti tərəfindən 221 nəfər arasından seçilən 23 namizəddən biri olan Fizzə Məmmədova son 5 ildə Rusiyanın nüfuzlu elmi jurnallarında dərc olunan məqalələrinin səviyyəsinə, aktuallığına və üzvü olduğu Beynəlxalq Birləşmiş Elmlər Akademiyasının təqdimatına görə sözügedən qurumlara rəyçi seçilib.

Dünyanın elmi-nəşriyyat xidmətləri sırasında aparıcı yer tutan bu akademik qurumlarda il ərzində yüzlərlə elmi konfranslar keçirilir, çoxsaylı elmi jurnallar dərc edilir, məsafəli elmi baza, onlayn kurslar və elektron kitabxanalar fəaliyyət göstərir.

Qeyd edək ki, hüquqi rəyçi statusu ilə yanaşı, azərbaycanlı alimin elmi məqalələri və kitabları həmin nəşriyyatlarda güzəştli şərtlərlə dərc olunacaq və “Science Public Library” elektron kitabxanasında sərgilənəcək.

***AMEA Naxçıvan Bölməsinin İnformasiya şöbəsi***

# Mahnılarda yaşayan Naxçıvan



*Adı mahnılara düşən, dillər əzbəri qədim Nuh yurduna kimlər mehman olmayıb? Rəşid Behbudov, Lütfəli Abdullayev, Nəsibə Zeynalova, Ələkbər Ələsgərov, Ədalət Nəsibov, Əbülfət Əliyev, Nəzakət Məmmədova və Naxçıvana qonaq gələn digər mədəniyyət xadimlərinin hamısı bu torpağın gözəlliyinə, insanlarının Naxçıvanı dövrəyə alan dağlarından da böyük olan ürəyinə heyran qalıblar.*

Tarixlərin yadigarı doğma diyarımıza poemalar həsr edilib, Naxçıvan adı könüllərə yazılıb, dodaqlardan süzülüb, qulaqlarda səslənib, gözəl mahnılarda tərənnüm olunub. O mahnılar ki illərdir, ürəklərə yol tapa, milyonların yaddaşına əbədilik həkk ola bilib. O mahnılar ki eşidəndə ruhu saflaşdırır, layla kimi könül oxşayır. Sözlərinin şirinliyi, saflığı, təbiiliyi, həzinliyi insanı ovsunlayır:

*Mən səni vəsf edim öz anam kimi,*
*Sarılım boynuna mehriban kimi.*
*Eşqin, məhəbbətin bir ümman kimi*
*Axır könüllərə sarı, Naxçıvan,*
*Ellərin sevgili yarı, Naxçıvan.*

Hər dəfə bu mahnını eşidəndə düşünürdüm ki, bu qədər sevgi, qəlb çırpıntıları ana-bala, ata-övlad hissləri, yurd sevgisi ilə bəzənmiş şux, əbədiyaşar mahnının bəstəkarı yalnız və yalnız naxçıvanlı ola bilər. Çünki bu diyara övlad məhəbbəti mahnının melodiyasında belə, açıq-aşkar duyulur. Ona görə də istər-istəməz fikirləşirsən: belə istək dolu mahnını ancaq bu torpaqda doğulub-böyümüş, onun suyundan içmiş övlad bəstələyə bilər. Araşdıranda isə görürük ki, “Barı Naxçıvan” mahnısının müəllifi 1912-ci ildə Qarabağda – Füzuli şəhərində anadan olmuş Məmməd Cavadovdur. Onun həyatının müəyyən bir hissəsi Naxçıvanda keçib. Mahnının sözlərindən duyulur ki, bu diyar ona nə qədər doğma və əziz olub. Bəstəkarın bu mahnısı neçə illərdir ki, ürəkləri fəth edir. Bu musiqi əsərinin yaranma tarixi isə belədir: Bəstəkar 1945-ci ildə ordubadlı tanınmış şair Hüseyn Əzimlə tanış olur. Onun şeirləri arasında “Barı Naxçıvan” bəstəkarın diqqətini çəkir. Və beləliklə, bu gün də dillər əzbəri olan “Barı Naxçıvan” mahnısı yaranır. Mahnının ilk ifaçısı bəstəkarın həyat yoldaşı Zərqələm Cavadova olub. Sonralar mahnı Məhəbbət Kazımov və digər sənətkarlar tərəfindən də ifa edilib.

Həmin illərdə Naxçıvana həsr olunmuş, klassik mahnı janrında bəstələnmiş ən gözəl nəğmələrdən biri də “Araz üstü şəhərim” mahnısıdır:

*Gözəl gördüm hər yanı,*
*Səndən gözəl hanı?*
*Ay qədim Naxçıvanım,*
*Ay güllü cavanım.*
*Gülür nurlu səhərim,*
*Araz üstü şəhərim.*

Bu mahnının sözləri mərhum şairimiz İslam Səfərliyə məxsusdur. Müəllifi, Xalq artisti Ramiz Mirişli öz xatirələrində yazır: “Həmin mahnıya kimi İslam Səfərli ilə birlikdə çox yaradıcılıq işimiz olmuşdu. Amma ürəyimdən keçirdi ki, doğma Naxçıvan barədə mənim də bir mahnım olsun. Fikrimi rəhmətlik İslama dedim. Bir müddət sonra mənə bu şeiri verdi. Mən də şeiri çox bəyəndim, beləcə, həmin mahnı meydana gəldi. 1974-cü il idi. Ulu öndər Heydər Əliyev Naxçıvana gəlmişdi. Burada dövlət səviyyəli tədbir keçirilirdi. Bu mahnı həmin dövlət konsertində birinci dəfə səsləndi. Mahnının ilk ifaçısı o vaxt Naxçıvandan Ali Sovetə deputat seçilən SSRİ Xalq artisti Rəşid Behbudov olub. Təəssüf ki, bu mahnı onun ifasında lentə alınmadı. Sonralar mahnını Xalq artistləri Şövkət Ələkbərova, Yaşar Səfərov da oxudular”. Bu mahnı bu gün də populyardır.

Bu gözəl diyardan söz düşəndə ilk xatırlanan musiqi əsərlərindən biri də “O Naxçıvandır” mahnısı olur:

*Dağlarını bulud qucan,*
*Daşlarından kəklik uçan,*
*Tarlaları ətir saçan,*
*Sinəsindən Arpaçayı,*
*Ətəyindən Araz keçən,*
*Hansı məkandır?*
*O, Naxçıvandır,*
*Nəqşi-Cahandır,*
*Azərbaycandır!*

Mahnının sözləri Əliheydər Qəmbərovun, bəstəsi isə Vahid Axundovundur. Mahnının ifaçısı Xalq artisti Abdulla Babayev olub. Tərtər rayonunda doğulub boya-başa çatan bəstəkar Vahid Axundov bu mahnını xüsusi olaraq yazıb. Belə ki, İkinci Dünya müharibəsi zamanı ağır yaralanan Vahid Axundov naxçıvanlı tibb bacısı Dilbər Təhməzbəyova ilə tanış olur. Müharibə başa çatdıqdan sonra o, Naxçıvana gəlir və Dilbər xanımla ailə qurur. Ömrünün sonuna qədər burada yaşayan Vahid Axundov igidlər oylağına, dahilər yetişdirən bu diyara nəinki Azərbaycanda, İranda, Türkiyədə də məşhur olan “O Naxçıvandır” mahnısını bəstələyir. Ulu Naxçıvan torpağının gözəl, ecazkar təbiətini tərənnüm edən, el şənliklərində oxunan, xoş təranəsi ilə könülləri ehtizaza gətirən mahnı uzun illərdir, dillər əzbəridir. Bu gün də “O Naxçıvandır” mahnısı dinləyicinin ruhunu oxşayır, mənəvi varlığına rahatlıq gətirir. Hazırda mahnı bir çox tanınmış müğənnilər, o cümlədən Elnur, Nuri Sərinləndirici tərəfindən də ifa edilir.

Doğma yurdumuza həsr olunmuş musiqi nümunələri arasında “Naxçıvanım” mahnısı da özünəməxsus yer tutur. Maraqlıdır ki, bu mahnının müəllifləri əslən naxçıvanlı deyil. Belə ki, sözləri Abşeron rayonunda dünyaya göz açmış, tanınmış nasir Şəmsəddin Abbasovun, musiqisi isə əslən bakılı olan Tofiq Quliyevindir. Qəlbləri oxşayan mahnının ilk ifaçılarından biri Mirzə Babayev olub:

*Eşitmişdim sərvətini,*
*Gəldim gördüm hörmətini,*
*Varlığını, qüdrətini –*
*Allı-güllü Naxçıvanım,*
*İgid elli Naxçıvanım.*
*Düzlərində kəklik gəzər,*
*Göllərində ördək üzər,*
*Dağlarını çiçək bəzər.*
*Arzum budur var olasan,*
*Od elinə yar olasan,*
*Ətirli gülzar olasan.*

Bir insan, Vətənini sevən bir vətəndaş üçün onun torpağının hər daşına-qayasına, elinə-obasına, igidinə tərif deyilməsi ən böyük xoşbəxtlikdir. Əlbəttə ki, hər kəsin dünyaya göz açdığı torpaq onun üçün əzizdir. İnsan suyu, çörəyi ilə böyüdüyü torpağı sevir, hər kəs öz tutduğu mövqedə Vətəninə xidmət etməyə çalışır. Müəllim savadlı kadr yetişdirməklə, şair torpağını vəsf etməklə, yazıçı gözəllikləri qələmə almaqla. Amma bir sevgi var ki, onu qazanmağa hər yurdun, hər torpağın gücü çatmır. Bu sevgi başqaları tərəfindən də sevilməkdir. Qədim igidlər oylağı, ulu torpağımız təkcə qoynunda böyütdüyü oğul, qızı tərəfindən deyil, doğma Azərbaycanımızın başqa bölgələrində dünyaya göz açan insanlar tərəfindən də sevilir. Naxçıvan sevgisi sətirlərə, notlara köçürülüb, dillər əzbəri olub. Sinəsindən Arpaçayı, ətəyindən Araz keçən, şanlı igidlər oylağı, qayalarında xınalı kəkliklər uçan qədim Nuh yurdu ellərin sevgilisi olub.

Bu gün də gözəl Naxçıvanımızdan ilham alanlar Nəqşi-Cahan haqqında yeni şeirlər yazır, mahnılar bəstələyir, ifa edirlər. Bununla yanaşı, gənc müğənnilər Naxçıvana həsr olunan retro mahnıları da hər zaman repertuarlarında saxlayırlar. Nə qədər ki bu qədim diyar öz gözəllikləri ilə buraya gələn qonaqları ovsunlayır, “Barı Naxçıvan”, “O Naxçıvandır”, “Naxçıvanım” mahnıları da könülləri oxşayacaqdır.

**✍ Ramiyyə ƏKBƏROVA**

## Növbəti “Qış məktəbi”nə start verilib



Ağbulaq İstirahət Mərkəzində muxtar respublikamızın fəal gənclərinin iştirakı ilə növbəti “Qış məktəbi”nə start verilib. Gənclər əvvəlcə Ağbulaq İstirahət Mərkəzi ilə yaxından tanış olub, sonra stolüstü idman oyunlarında iştirak edib, süni örtüklü mini-futbol meydançasında futbol oynayıblar.

Günün ikinci yarısında məktəb iştirakçıları arasında “Vətəni tanı” intellektual oyunu keçirilib. Şam yeməyindən sonra gənclər tərəfindən hazırlanan əyləncəli səhnəciklər nümayiş olunub. Günün sonunda vətənpərvərlik mövzusunda “Aprel döyüşləri” sənədli filminə baxılıb.

Qeyd edək ki, Naxçıvan Muxtar Respublikasının Gənclər və İdman Nazirliyi, Gənclər Fondu, Həmkarlar İttifaqları Şurası, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı və Heydər Əliyev adına Gənclər Birliyinin birgə təşkilatçılığı ilə keçirilən “Qış məktəbi”nin iştirakçıları muxtar respublikada fəaliyyət göstərən ali və orta ixtisas təhsili müəssisələrinin tələbələridirlər.

## Hüquqi maarifləndirmə günün tələbidir

***Sual:*** ***Nikah müqaviləsi nədir və hansı qaydada bağlanır?***

Cavab: Nikah müqaviləsi nikaha daxil olan şəxslər arasında bağlanan, nikah dövründə və (və ya) nikah pozulduqda ər-arvadın əmlak hüquqlarını və vəzifələrini müəyyən edən sazişdir. Nikah müqaviləsi ilə ər-arvad birgə mülkiyyətin qanunla müəyyən olunmuş rejimini dəyişərək, ümumi əmlaka, onun ayrı-ayrı növlərinə və ya ər-arvadın hər birinin əmlakına birgə, paylı və ya ayrıca mülkiyyət rejimi tətbiq edə bilərlər.

Nikah müqaviləsi nikahın bağlanmasının dövlət qeydiyyatına qədər, eləcə də nikah dövründə istənilən vaxtda bağlana bilər. Nikahın bağlanmasının dövlət qeydiyyatına qədər bağlanmış nikah müqaviləsi nikahın bağlanmasının dövlət qeydiyyatına alındığı gündən qüvvəyə minir. Nikah müqaviləsi yazılı formada bağlanır və notariat qaydasında təsdiq olunur.

***Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) mətbuat xidməti***

## Açıq birincilik başa çatıb

*Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində Naxçıvan Muxtar Respublikasının 95 illik yubileyi münasibətilə qız və oğlanlar arasında karate-do üzrə Naxçıvan şəhər açıq birinciliyi keçirilib.*



Yarışda Naxçıvan şəhəri ilə yanaşı, muxtar respublika rayonlarının da idmançıları iştirak ediblər. Tədbirdə çıxış edənlər muxtar respublikanın 95 illik yubileyi münasibətilə idmançıları təbrik edərək bildiriblər ki, açıq birinciliyin keçirilməsində məqsəd karate-do idman növünü yeniyetmə və gənclər arasında təbliğ etməkdən ibarətdir.

Muxtar respublikanın Karate-do Federasiyası və Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə keçirilən görüşdə 150-yə yaxın idmançı mübarizə aparıb. 7 yaş qrupunda 12 çəki dərəcəsi üzrə təşkil edilən görüş beynəlxalq qaydalar əsasında keçirilib.

Yekun nəticəyə əsasən qızlar arasında 8-9 yaş qrupunda Zəhra Məmmədova (-35 kiloqram, Naxçıvan), 10-11 yaş qrupunda Nərgiz Həsənli (-35 kiloqram, Naxçıvan), Ayan Məmmədova (-40 kiloqram, Naxçıvan), oğlanlar arasında isə 8-9 yaş qrupunda Həsən Səfərli (-23 kiloqram, Naxçıvan), Elgün Zeynalov (-33 kiloqram, Kəngərli), 10-11 yaş qrupunda Yaqub Qənbərov (-30 kiloqram, Naxçıvan), Yaqub Abdullayev (-38 kiloqram, Babək), 12-13 yaş qrupunda Əli Mehdiyev (-33 kiloqram, Şərur), Məhəmməd Bağırov (-48 kiloqram, Sədərək), 14-15 yaş qrupunda Vüsal Seyidov (-52 kiloqram, Naxçıvan) və 16-17 yaş qrupunda İmran Həsənov (-55 kiloqram, Naxçıvan) və Aslan İsmayılov (-61 kiloqram, Naxçıvan) bütün görüşləri qalib kimi başa vuraraq birinci yerə layiq görülüblər.

Sonda hər yaş qrupunda I, II və III yerləri tutan idmançılara təşkilatçıların diplomları təqdim edilib.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

## İdmançılarımız 3 bürünc medal qazanıblar

*8-9 fevral tarixlərində Bakı şəhərində yüngül atletika üzrə Azərbaycan çempionatı keçirilib.*



Respublika Olimpiya Mərkəzində keçirilən birincilikdə Naxçıvan Muxtar Respublikasının Yüngül Atletika Federasiyasının idmançıları da iştirak ediblər.

1500 metr məsafəyə qaçış üzrə yarışda Səfər Tağıyev və Xatun Oruclu bürünc medal qazanıblar. 3000 metr məsafədə isə Əmrah Nağıyev eyni uğuru təkrarlayıb. O, finiş xəttinə üçüncü çatıb.

Sonda qalib idmançılarımız təşkilatçılar tərəfindən diplom və medallarla mükafatlandırılıblar.

**✍ Ceyhun MƏMMƏDOV**

### İtmişdir

İbrahimov Fizuli Hüseyn oğlunun adına olan MH-0035089 seriyalı çıxarış itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Mətanət Məmmədova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1495. Sifariş № 120